# Sumqayıt Tibb Kollecinin 50 illik yubileyi qeyd olunub

***❐ Əziz Əliyev adına Sumqayıt Tibb Kollecinin 50 illik yubileyinə həsr olunan tədbir keçirilib. Mərasimdə şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov, səhiyyə nazirinin müavini Elsevər Ağayev, kollecin müəllim və tələbələri iştirak ediblər.***






Tədbir iştirakçıları əvvəlcə təhsil ocağının yarım əsrlik tarixindən və bugünündən bəhs edən sənədli filmi izləyiblər.

Səhiyyə nazirinin müavini Elsevər Ağayev kollecin kollektivini yubiley münasibətilə təbrik edib, bu təhsil müəssisəsinin Sumqayıt şəhərində səhiyyənin inkişafı və formalaşmasında mühüm rol oynadığını vurğulayıb.

Nazir müavini qeyd edib ki, ölkəmizdə baş verən sürətli iqtisadi inkişaf bütün sosial sahələrin, o cümlədən, səhiyyənin inkişafına da böyük təkan verir. Ölkə rəhbərliyinin apardığı sosialyönümlü siyasətin nəticəsi olaraq son illər ərzində səhiyyənin inkişafı istiqamətində çoxsaylı layihələr həyata keçirilir. Sumqayıt şəhərində də səhiyyənin inkişafı ilə bağlı mühüm addımlar atılıb, ciddi nailiyyətlər əldə olunub. Bu il cənab Prezident 2 saylı Sumqayıt şəhər xəstəxanasının yenidən tikilməsi və zəruri tibbi avadanlıqlarla təchiz edilməsi haqqında sərəncam imzalayıb.

İcra hakimiyyətinin başçısı Zakir Fərəcov kollecin şəhərin səhiyyə sahəsində kadr potensialının gücləndirilməsinə mühüm töhfə verdiyini diqqətə çatdırıb, təhsil müəssisəsinin kollektivinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Z.Fərəcov qeyd edib ki, səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzindədir. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə ən müasir tələblərə cavab verən səhiyyə infrastrukturunun yaradılması, yeni xəstəxanaların tikilməsi, mövcud tibb ocaqlarının yenidən qurulması geniş vüsət alıb.

Kollecin direktoru, tibb elmləri doktoru, Əməkdar həkim Rəfayıl Eyvazov çıxış edərək, kollecin fəaliyyəti haqqında geniş məlumat verib. Bildirib ki, son illər burada tələbə kontingentinin artması nəticəsində Səhiyyə Nazirliyinin və kollecin daxili imkanları hesabına maddi-texniki bazanı möhkəmləndirmək məqsədilə korpusların sayı artırılıb, əyani vəsaitlərlə təchiz olunaraq, müasir tələblərə cavab verən 4 laboratoriya, 40-dan artıq auditoriya, kitabxana, kompüter şəbəkəsi və otağı, müasir tələblərə cavab verən yeməkxana, ayrıca istilik sistemi yaradılıb. Kollec bir neçə dəfə cari və əsaslı təmir olunub.

Kollecin məzunlarının işlə təmin olunmasına da xüsusi diqqət yetirilir. Demək olar ki, məzunların əksəriyyəti kolleci bitirən kimi işlə təmin olunurlar. Hazırda Sumqayıt şəhərinin tibb müəssisələrində 1671 məzun işləyir.

Çıxışlardan sonra kollecin bir qrup müəllim və tələbəsi şəhər icra hakimiyyətinin Fəxri fərmanları ilə təltif olunub.

***Ə.NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***